İPƏK YOLU, No.4, 2025, səh.52-66
https://doi.org/10.30546/SI.2025.4.6.516

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜDAFİƏNİN ƏSAS MƏQSƏDLƏRİ

**Emin Əlirzayev**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Bakı, Azərbaycan
e-mail: alirzayev@gmail.com

**Xülasə.** Məqalədə Azərbaycan Respublikasında sosial müdafiənin sahələrarası əlaqədə iqtisadi mahiyyətinin və rolunun məqsədlər bazasında təhlili üzərində elmi əsasları verilmiş, dövlətin mühüm tənzimləmə mexanizmlərindən biri kimi sosial müdafiə sisteminin rolu önə çıxarılmışdır. Azərbaycanın mövcud sosial müdafiə sistemində sosial müdafiənin məqsədlər istiqamətində fəaliyyətinin retrospektiv təcrübəsi və mövcud imkanlar nəzərə alınmaqla tədqiqatın nəticələri növbəti prioritetlərin müəyyənləşdirilməsi üçün əhəmiyyətlidir.

**Açar sözlər:** Sosial müdafiə, sosial müdafiənin funksiyaları, sosial müdafiə məqsədləri, sosial müdafiədə hədəflər, yoxsulluq, pensiya təminatı.

## MAIN GOALS OF SOCIAL PROTECTION IN THE REPUBLIC OF AZERBAIJAN

**Emin Alirzayev**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*
*State Social Protection Fund, Ministry of Labor and Social Protection of Population, Baku, Azerbaijan*

**Abstract.** The article provides scientific foundations for the analysis of the economic essence and role of social protection in the inter-sectoral relationship in the Republic of Azerbaijan on the basis of objectives and highlights the role of the social protection system as one of the important regulatory mechanisms of the state. The results of the study, taking into account the retrospective experience of the activities of social protection in the current social protection system of Azerbaijan in accordance with the objectives and existing opportunities, are important for determining the next priorities.
**Keywords:** Social protection, functions of social protection, social protection goals, social protection targets, poverty, pension provision.

## ОСНОВНЫЕ ЦЕЛИ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Эмин Алирзаев**
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*
*Государственный Фонд Социальной Защиты, Министерство Труда и Социальной Защиты Населения, Баку, Азербайджан*

**Резюме.** В статье изложены научные основы анализа экономической сущности и роли социальной защиты в межсекторальных отношениях в Азербайджанской Республике на основе поставленных задач, а также подчеркнута роль системы социальной защиты как одного из важных механизмов государственного регулирования. Результаты исследования, учитывающие ретроспективный опыт деятельности социальной защиты в действующей системе социальной защиты Азербайджана в соответствии с поставленными задачами и имеющимися возможностями, имеют важное значение для определения дальнейших приоритетов.
**Ключевые слова:** Социальная защита, функции социальной защиты, цели социальной защиты, задачи социальной защиты, бедность, пенсионное обеспечение.

## 1. Giriş

Sosial müdafiə sahələrarası əlaqələr mühitində çoxşaxəli müdafiə tədbirləri və mexanizmlərinin məcmusu olaraq çıxış edir, onun fəaliyyətinin digər idarəetmə sistemlərilə qarşılıqlı münasibətlər əlaqəsində təmin edilməsi isə sosial müdafiənin sistemliliyini formalaşdırır. Sosial və iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi fərd özü çıxış etdiyindən fərdin maraqlarının gözlənilməsi, cəmiyyətdə sosial və iqtisadi mövqeyinin möhkəmləndirilməsi sosial müdafiənin də müəyyən mənada məqsədlərinin çərçivə istiqamətlərini müəyyənləşdirir. Azərbaycanda əhalinin sosial rifah səviyyəsinin saxlanması dövlət idarəçiliyinin davamlılığının təmin edilməsi yolu kimi dövlət siyasətinin əsas istiqamətlərindən hesab edilir. Bu baxımdan sosial müdafiənin sistemli tədqiqi çərçivəsində onun məqsəd və vəzifələrinin dövlətin sosial və iqtisadi siyasəti ilə əlaqədə öyrənilməsi elmi-nəzəri cəhətdən əhəmiyyətli hesab edilir. Müasir şəraitdə özünün fəaliyyəti ilə sosial müdafiə sistemi əslində birbaşa və ya dolayı şəkildə dövlətin məqsəd və vəzifələrinə xidmət etməklə dövlətin funksiyalarının tərkib elementi kimi çıxış edir. Sosial müdafiə və təminata münasibətdə zamanla yeni tələblər və gözləntilərin formalaşması isə sosial tələblərin dövlətin funksiyaları ilə uzlaşdırılma şəraitində sosial müdafiənin məqsədlərinin ortaya çıxmasını şərtləndirməklə, bu sahənin təkmilləşdirilməsi üçün imkanların səfərbər edilməsi üçün növbəti dövlət üçün prioritet marşrutları müəyyənləşdirir.

**Ədəbiyyat icmalı.** Azərbaycanda sosial müdafiənin inkişafının onun məqsədləri bazasında təhlili, hesab etmək olar ki, sosial müdafiənin mərhələli inkişafı prosesindən irəli gələn zəruriliklə bağlıdır. Bu çərçivədə sosial sferanın iqtisadi məsələlər ilə bağlı çoxsaylı elmi yazıların müəllifləri olmuş Ə. Əlirzayev, Ə. Nağıyev, H. Rəcəbli və s. kimi yerli müəlliflər tərəfindən də bilavasitə bu mövzu istiqamətinə yazılar həsr edilmişdir. Elmi ədəbiyyatlar olaraq, əsasən, mövzu üzrə əlaqədar məsələlərin toxunulduğu xarici mənbələrə istinadlar daha çox yer verilmişdir. Bu istiqamətdə, xüsusən, Devereux S., Sabates-Wheeler R., Barron G. və digər tədqiqatçıların fikirlərindən faydalanmaq olar. Digər mənbələr olaraq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi göstəricilərindən, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyi üzrə rəsmi internet resurslarında (o cümlədən, DOST Agentliyi tərəfindən) açıqlanılan informasiyalardan, beynəlxalq təşkilatların məcmuələrindən, eləcə də yerli qanunvericilik aktlarından istifadə olunmuşdur. Bu çərçivədə zəruri hallarda dinamikanın müəyyən edilməsi üçün həmçinin müvafiq rəsmi statistik göstəricilər, o cümlədən mövcud şəraitdə ölkədə sosial müdafiənin əsası kimi pensiya sistemi ilə bağlı bəzi makroiqtisadi parametrlər üzərində riyazi-statistik yanaşmalar əsasında kəmiyyət metodları ilə müqayisəli təhlillərin aparılmasına da müraciət edilmişdir.

## 2. Sosial müdafiənin məqsədləri: iqtisadi mahiyyət və inkişafda rolunun nəzəri təhlili

Əhalinin sosial müdafiəyə olan tələbatının mövcud imkanlar çərçivəsində ən optimal şəkildə ödənilməsi dövlətin hərtərəfli sosial-iqtisadi siyasətinin məqsədəuyğunluq səviyyəsi ilə bağlıdır. Təsadüfi deyildir ki, iqtisadi fikir tarixində görkəmli iqtisadçılardan C. Helbreyt

dövlətin sosial məqsədlərin həyata keçirilməsinə nail olunmasını ən yaxşı iqtisadi sistemlərə xas məsələlərdən biri olaraq görmüşdür [6, s.27]. Bu baxımdan, sosial müdafiənin təmin edilməsi və təşkili iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmlərinin mühüm istiqamətidir. Bu mənada sosial müdafiə həm də ölkənin sosial-iqtisadi inkişafı baxımından makroiqtisadi stabillik yaratma xüsusiyyəti daşıyır. Sosial müdafiənin onun məqsədləri prizmasından tədqiqi ilk növbədə bu yolla sosial müdafiənin sosial-iqtisadi rolunun açılmasına gətirib çıxarması, eyni zamanda ölkə üçün növbəti sosial müdafiə məqsədlərinin müəyyən olunması nöqteyi-nəzərdən əhəmiyyətlidir. Bilavasitə bu istiqamətə yerli elmi mühitdə hələlik ayrıca tədqiqatlar həsr edilməsə də, sosial müdafiə ilə bağlı məsələlər üzrə yazılarda əlaqədar məqamlara toxunulduğunu qeyd etmək olar. Prof. Ə. Əlirzayev sosial sferanın iqtisadi əsaslarına həsr etdiyi əsərində sosial müdafiədə "məqsədlər" kateqoriyasını sosial müdafiənin sistemli tənzimlənilməsinin əsas komponentlərindən biri olaraq hesab edir [5, s.206]. Ümumilikdə məqsədlərin müəyyən olunması makroiqtisadi inkişaf üçün əhəmiyyətli olan strateji planlaşdırmanın diaqnostika, strategiyanın işlənilməsi və reallaşdırılması mərhələləri aralığında üç əsas mərhələdən (işlənilmə mərhələsindən əvvəl) biri hesab edilir [7, s.216].

Sosial müdafiənin iqtisadiyyatda əsas rolu onun bilavasitə əhali gəlirlərinin təmin edilməsi olmamaqla, sosial mənşəli hadisələr nəticəsində itirilmiş və ya əldə oluna bilməyəcək gəlirin kompensasiya edilməsi ilə bağlıdır. Pensiya və sosial müavinətlər, ünvanlı dövlət sosial yardımı, müxtəlif kompensasiya və təqaüdlər formasında daha çox gəlirlərin təmin edilməsi ilə bağlı olan sosial müdafiənin sosial təminatdan fərqləndirən cəhətlərdən birini - sosial müdafiənin məqsədlərə uyğun təmin edilməsi təşkil edir. Əhalinin sosial transferlər şəklində əldə etdiyi gəlirlər bir qayda olaraq ev təsərrüfatlarının ümumi gəlirlərinin əhəmiyyətli hissəsini təşkil etməməkdədir. Bu, sosial müdafiənin ana məqsədinin iqtisadi dəyər yaradılması prosesinin təminatçısı və ya iştirakçısı kimi çıxış etməsi ilə bağlı olmadığına dəlalət edir. Belə ki, iqtisadi dəyər yaradılması prosesi mahiyyətcə qeyri-dövlət sektorunun, o cümlədən sahibkarlıq fəaliyyətinin inkişafı ilə bağlıdır. Bu məqam, özlüyündə sosial müdafiənin əsas iqtisadi mahiyyətinə işarə edir. Bu baxımdan sosial müdafiənin iqtisadi mahiyyəti sosial müdafiə məqsədlərinin əsas istiqamətlərini ortaya çıxarır.




**Sxem 1.** Sosial müdafiə məqsədlərinin formalaşmasına təsir edən amillər

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir

Sosial müdafiə məqsədlərinin formalaşmasında institusional amillər də rol oynamaqdadır ki, bu da son nəticədə sosial müdafiəni idarə edən qurum səviyyəsində idarəetmə ilə vəhdətdə sosial müdafiə üzrə məqsədlərin ortaya çıxmasına təsir edir. Mənşə baxımından sosial müdafiə məqsədlərinin formalaşmasına təsir edən amilləri iki istiqamətdə ayırmaq mümkündür (Sxem 1). Sxem 1-də verilən təsvir mahiyyət etibarilə ölkədə sosial müdafiə ilə bağlı məqsədlərin formalaşmasında bəzən instisusional maraqların da əhəmiyyətli təsiri olduğuna işarə edir. Sosial müdafiənin ümumbəşəri səviyyədə təsəvvür edilən məqsədlərinin, mahiyyət etibarilə, məsələn, “sosial ədalətin gücləndirilməsi, ədalətli maddi bölgü, hər kəs üçün əlçatan xidmətlər, fərd maraq və hüquqlarına ədalətli yanaşma” kimi elementləri əhatə etməli olması şəraitində, sosial müdafiəni idarə edən qurumun “sosial müdafiə məqsədli xərclərə qənaət edilməsi, sosial müdafiə sistemində maliyyə təminatlılığının və dayanıqlılığın təmin edilməsi, idarəetmə xərclərinin artırılması hesabına fəaliyyət və təsir imkanlarının genişləndirilməsi, korporativ gəlir əldə eilməsi və s.” kimi maraqlara xidmət edən fəaliyyət tədbirləri də özlüyündə məqsədlər formalaşdıra bilər. Bu da müasir şəraitdə sosial müdafiənin məqsədləri istiqamətində idarə edilməsinə xarakterik olan maraq kəsişməsi hallarının da mövcudluğunun nəzərə alınmasını zəruri edir.

“Sosial müdafiənin məqsədləri” ilə “sosial müdafiənin funksiyaları” kateqoriyalarının ilkin baxışda oxşar və ya müəyən mənada üst-üstə düşən əhatə dairəsinə malik olduğu düşünülsə də, sosial müdafiə məqsədləri qoyulan müddətli hədəflərlə daha çox əlaqəlidir. Belə ki, sosial müdafiənin hədəfləri sosial müdafiənin məqsədlərinin reallaşdırılması istiqamətində aralıq nəticələri ifadə etməkdədir, bu prosesdə isə müxtəlif sosial müdafiə fəaliyyətlərinin həyata keçirilməsi isə sosial müdafiənin funksiyalarını əmələ gətirir ki, bunlar da bir neçə istiqamət üzrə səciyyələndirilməklə təsniflədirilə bilər.

Beynəlxalq təcrübədə bəzi müəlliflər öz tədqiqatlarında sosial müdafiə alətləri və ya mexanizmlərinin funksional olaraq qarşılıqlı kəsişmələri olan (yəni bir istiqamət üzrə görülən tədbirin digər istiqamət üzrə də statusun yaxşılaşmasına təsiri olan) təminat, preventiv, təşviqedici və transformativ olaraq dörd istiqamətini ayırmaqla, sonuncu istiqamətə sosial müdafiənin pespektiv inkişafı baxımından xususi əhəmiyyət verirlər [3; 4]. Bu funksiyalardan ilk üç yanaşma Azərbaycan Respublikası nümunəsində müəyyən olan mahiyyəti əhatə etsə də, əslində daha çox sosial inkluzivliyi, istənilən diskriminasiya halını istisna etməklə və fərdlərin öz hüquqları istiqamətində bərabərlik şəraitində sosial müdafiə xidmətlərindən faydalanması imkanlarını nəzərdə tutan transformativ yanaşmaya ayrıca önəm verilməsi ölkəmizin də sosial müdafiə sisteminin idarə edilməsi baxımından inkişaf konturlarını ehtiva edir. Sosial müdafiənin əksər mexanizmləri daha çox əhaliyə nağd transfertlərin ödənişi ilə müşayiət olunan iqtisadi mahiyyətli tədbirlər olaraq başa düşülsə də, sosial müdafiədə transformativlik xüsusiyyətinin gücləndirilməsi sosial müdafiənin daha çox sosial xüsusiyyətlərinə keçidini gücləndirməyə, başqa sözlə, onun sosial tərəflərinin daha da möhkəmlənməsinə xidmət edir və sosial həssaslığın da nəzərə alınmasını özündə birləşdirir.

Ümumi nəzəriyyələrə söykənməklə, Azərbaycan Respublikasında da mövcud idarəetmə strukturu nəzərə alınmaqla iqtisadi baxımdan sosial müdafiənin əsas olaraq aşağıdakı iqtisadi funksiyalarını ayırd etmək olar (Sxem 2):




**Sxem 2.** Sosial müdafiənin ümumiləşdirilmiş iqtisadi-funksional istiqamətləri

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir

Əlbəttə, sosial müdafiənin funksiyaları nomenklatura olaraq yuxarıdakı sxemdəki təsvirdə əks etdirilmiş istiqamətlərlə məhdudlaşdırılmaya da bilər, lakin ümumiləşdirilmiş mənada verilən bu təsvir, əslində mövcud sosial müdafiə tərtibatı çərçivəsində bütün istiqamətlərin əsas iqtisadi mahiyyətli əlamətlərini özündə səciyyələndirməsi baxımından əhatəlidir. Sosial müdafiənin funksiyalarının tam əhatəsi onun sosial tərəflərinin nəzərə alınması ilə təbii ki, daha da genişlənir.

Sosial müdafiə sahəsində də, digər sahələrdə olduğu kimi, dövlət tənzimlənməsində sosial müdafiənin müvafiq sahələrinin normativ-hüquqi bazasına və strateji sənədlərin icrasına əsaslanılır. Sosial müdafiə siyasəti aralıq məqsədlərə doğru yönəlsə də, onun nəhayət hədəfi - sosial müdafiədə sosial ədalət prinsipinin gücləndirilməsi olmalıdır. Həyata keçirilən sosial müdafiə siyasətində sosial ədalət prinsipinə fokuslanma sosial müdafiənin benefisiarlarına münasibətdə daha ədalətli yanaşmada - əməyin kəmiyyəti, xarakteri və xidmət müqabilində optimal təminat imkanlarını nəzərdə tutmaqla onun səmərəliliyinin və nəticəliliyinin təmin edilməsi meyarı kimi çıxış edir. Bu mənada sosial müdafiədə funksiyaların icrası həmçinin, nəticə etibarilə bütövlükdə tarazlaşdırıcı (stabilləşdirici) mahiyyət də kəsb edir ki, bu da özlüyündə ayrıca funksiya olaraq qəbul edilə bilər.

Milli səviyyələrdə sosial müdafiə mexanizmləri arasında, məsələn, pensiya və müavinətlərlə təminat, ünvanlı dövlət sosial yardımı kimi qolların əhali problemlərinin həllində rolundan irəli gəlməklə bu barədə daha çox məlumatlılıq mövcud olmaqla, bu istiqamətlər daha çox sosial diqqət altında olur. Bu və digər məqamlardan asılı olaraq sosial müdafiənin məqsədləri arasında prioritetlik fərqləri formalaşır.

Bəzi xarici müəlliflər də sosial müdafiənin məqsədlərinə sosial müdafiə anlayışı kateqoriyası prizmasından yanaşılmasını əsas götürməklə, onun mahiyyətindən irəli gələrək sosial müdafiə məqsədlərini 3 əsas xarakterik istiqamətdə ümumiləşdirirlər: 1. Sosial sığorta

xarakterli mexanizmlər; 2. Yardım xarakterli mexanizmlər; 3. Sosial xidmət xarakterli mexanizmlər [2].

Sosial müdafiədə məqsədə nail olunması onun fəaliyyətində səmərəlilik və keyfiyyət mahiyyətini də ehtiva edir. Sosial müdafiədə məqsədlərə nail olunması sosial müdafiə ilə bağlı formalaşmış nəzəriyyələrlə qəbul edilən onun təşkili prinsiplərinə riayət olunması şəraitində baş verə bilər. Bu məqsədlə sosial müdafiənin tənzimlənməsində sosial müdafiə islahatlarına dair qərarlar bu prinsiplərə uyğunlaşdırılmış yanaşmada həyata keçirilməlidir.

Azərbaycan Respublikasının yerli normativ, idarəetmə və sosial xüsusiyyətləri nəzərə alınmaqla, bütövlükdə, sosial müdafiənin məqsədlərini sahələrarası əlaqədə aşağıdakı istiqamətlərdə ümumiləşdirə bilərik (Sxem 3):




**Sxem 3.** Azərbaycanda sahələrarası münasibətlər baxımından sosial müdafiənin ümumiləşdirilmiş məqsədləri
**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir

Sxem 3-dən də göründüyü kimi, sosial müdafiənin məqsədləri yönündə fəaliyyətin həyata keçrilməsi özünün sosial və iqtisadi nəticələrini qarşılıqlı şəkildə ortaya çıxarır. İqtisadiyyatın xüsusi sahəsi kimi dövlət tənzimlənməsinin obyekti olaraq qəbul edilməklə sosial müdafiədə məqsədləri ilk növbədə dövlət idarəçiliyinə yaxınlıq nöqteyi-nəzərdən birbaşa və dolayı məqsədlərə ayırmaq mümkündür. Sosial müdafiənin birbaşa məqsədləri müasir dövlət modelləri üçün xarakterik olan məqsədlərdir. Sxemdə öz əksini tapan “dolayı” və ya “törəmə” adlandıra biləcəyimiz digər (və bu mənada məkan məhdudiyyətinə görə öz əksini tapmayan sair) məqsədlər isə yerli xüsusiyyətlərdən asılı olaraq beynəlxalq elmi-nəzəri təcrübədə nisbətən fərqli istiqamətlərlə də ifadə oluna bilər.

Sosial müdafiə tədbirlərinin, xüsusən, yoxsulluqla mübarizədə, eləcə də sosial müdafiənin davamlı problemlərindən olan - sosial və iqtisadi cəhətdən həssaslığın qarşısının

alınmasında birbaşa rolu qiymətləndirilir. Beynəlxalq tədqiqatlar sosial müdafiə tədbirlərinin kənd təsərrüfatında belə istehsal, bazar, institusional, fərd və maliyyə risklərinin nəticələri ilə müqayisədə effektiv olduğunu qiymətləndirir: bu, sosial sığorta, maliyyə dəstəyi və natura şəklində köçürmələri nəzərdə tutan sosial yardım və bu iki sistemlə əhatə oluna bilinməməklə təcrid olunan şəxslər üzərində diqqətin artırılması ilə əhalinin həssaslığını azaltmağa yönəlmiş xüsusi tədbirlərin məcmusu şəklində həyata keçirilir. Sosial müdafiənin iqlim və qiymət şoklarından qaynaqlanan ölkə üçün xüsusi əhəmiyyətli məsələ olan ərzaq təhlükəsizliyi baxımından ayrıca önəm daşıdığı da tədqiq olunmuş məsələlər arasındadır [22]. Məsələn, müasir şəraitdə sosial müdafiənin böhranlı hallarda əhalinin sosial və iqtisadi həssaslığı ilə mübarizə potensialında qurulmasının zəruriliyi qlobal miqyasda 2020-ci ildən özünü biruzə vermiş COVID-19 pandemiyası timsalında daha çox göstərmişdir ki, bu da sosial müdafiənin adaptivlik xüsusiyyətlərində qurulmasını şərtləndirir [1]. Həmçinin, sosial müdafiənin kəndin və kənd təsərrüfatının struktur inkişafında sağlam qidalanma və bununla birlikdə insan kapitalının inkişafına, kənd əhalisinə resurs ayrılması və ümumilikdə risk idarəedilməsinə münasibətdə transformativ təsirləri baxımından, həmçinin davamlılıq və inkluzivliyin artırılmasının sosial müdafiə məqsədləri arasında sosial müdafiə siyasətinin işlənilməsində yer almasına diqqət yetirilməsi son beynəlxalq tədqiqatlarda önəm verilən məsələlərdəndir [21]. Respublikamızda iqtisadiyyatın strukturu və məşğulluq imkanları baxımından bu prizmadan da sosial müdafiə islahatlarının işlənilməsində vacib məqamlar gözlənilməlidir.

Sosial müdafiənin məqsədləri ilə onun hədəfləri arasında bağlılığın olmasının aşkar görünməsinə baxmayaraq, məqsəd və hədəflər element olaraq əksər hallarda üst-üstə düşmür. Sosial müdafiədə hədəflər məqsədlərə nail olunması istiqamətində görülən tədbirlər üzrə aralıq məqsədlər kimi də ifadə oluna bilər. Bununla əlaqədar sosial müdafiədə məqsədlərin hədəflərlə üst-üstə düşməsinə də rast gəlinə bilər. Bu baxımdan nəzəri-təhlili yanaşmalarda bəzən sosial müdafiənin məqsəd və vəzifələrinin fərqləndirilməsi çətin ola və ya bu məqam gözdən yayına bilər. Odur ki, sosial müdafiəyə münasibətdə bu iki kateqoriya arasında məna oxşarlığının olmasına baxmayaraq, buradakı əsas fərqi sosial müdafiədə məqsədlərin qısamüddətli və ya aralıq mahiyyət daşıyan hədəflərdən fərqli olaraq elmi, nəzəri və praktiki baxımdan sosial müdafiənin idarə edilməsi üçün daimi müəyyən edilmiş fundamental əsasları təşkil etməsi ilə ifadə etmək olar. Beləliklə, sosial müdafiə sistemininin inkişafına və sosial dövlət quruculuğuna nail olunmasının sosial müdafiənin məqsədləri istiqamətində məqsədəuyğun fəaliyyətin sosial müdafiənin təşkili ilə bağlı mütərəqqi prinsiplərlə vəhdətdə qurulması şəraitində baş verməsi mümkün hesab edilir. Sosial müdafiənin məqsədləri konkret zaman mühitində müəyyən hədəflərə istiqamətlənmiş fəaliyyətdən doğur. Ümumiyyətlə, məsələyə geniş yanaşdıqda, sosial müdafiənin təmin edilməsinin özünün proses olaraq əsas mahiyyətinin əslində sosial müdafiənin məqsədlərinə çatmaq hədəfi ilə bağlı olduğunu da mülahizə etmək mümkündür. Bununla belə, real idarəetmədə hədəflərin dairəsi daha geniş olmaqla (həm bilavasitə sosial müdafiə, həm də sosial təminat istiqamətlərini əhatə etməklə) və prioritetlik baxımından

zamanla dəyişkənlik xüsusiyyətləri kəsb etməkdədir. Sosial müdafiənin məqsədləri nisbətən statik mahiyyət daşıyan sosial-iqtisadi hədəflərə nail olunmasında əvvəlki dövrlərə nisbətən səmərəliliyin əldə olunmasının qiymətləndirilməsi metodologiyasına əsaslanır, lakin burada təkmilləşmə üçün müqayisə meyarları olaraq iqtisadi əsaslı göstəricilərin nəzərə alınması daha məqsədəuyğundur. Bu əsasda qiymətləndirilmə həmçinin, Azərbaycan Respublikası timsalında da sosial müdafiənin təşkili, təminatının keyfiyyəti və məqsədəuyğunluğu haqqında ümumi təsəvvür formalaşdırmağa imkan verir.

Sosial müdafiə siyasətinin məqsədinin nəzəri baxımdan, demək olar ki, müstəvisinin daha yüksək səviyyələrdə müdafiə və təminatı nəzərdə tutumasına baxmayaraq, sosial müdafiədə məqsədlər əksər hallarda məhdud maliyyə imkanları ilə də kəsişir. Mülahizələr əsasında da belə bir ümumi nəticəyə gəlmək olar ki, sahələrarası əlaqədə sosial müdafiə, əsasən, gəlirlərin yenidən bölgü əsasında formalaşmasını və yoxsulluğun azaldılmasını hədəfləməklə, ən azından minimal səviyyədə əhalinin sosial və iqtisadi vəziyyətinə tənzimləyici təsir göstərilməsini hədəfləməkdədir. Nəzəri baxımdan sosial müdafiədə məqsədlərin fəlsəfəsininin eyni olmasından çıxış edərək sosial müdafiənin bütün məqsədlərinə xas olan ümumi komponentləri aşağıdakı sxemdəki kimi ayırmaq olar (Sxem 4):




**Sxem 4.** Əhaliyə münasibətdə sosial müdafiə məqsədlərinin ümumi komponentləri
**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir

Hər bir sosial müdafiə sistemində (modelində), o cümlədən Azərbaycan Respublikası timsalında qarşıya qoyulan hədəflər istiqamətində sosial müdafiə məqsədlərinin müəyyən olunmasında Sxem 4-də əks etdirdiyimiz elementlərin gözlənilməsi optimal resurs-bölgü mühiti formalaşdırmaqla inkişaf və təkmilləşmə baxımından şərti əhəmiyyət kəsb edir. Qeyd edilənlərin mahiyyətindən anlaşıldığı kimi qlobal səviyyədə də sosial müdafiəyə onun məqsədləri baxımından böyük önəm verilir. Təsadüfi deyildir ki, sosial müdafiə sosial, iqtisadi və siyasi zərurət olaraq görünür. Beynəlxalq ictimaiyyət tərəfindən 2030-cu ilə istiqamətlənməklə BMT səviyyəsində qəbul edilmiş və Azərbaycan Respublikasının da qoşulduğu 17 qlobal məqsədi əhatə edən Dayanıqlı İnkişaf Məqsədləri strategiyasında dayanıqlı gələcəyə nail olunması üçün 5 məqsəd qlobal çağırışlar qismində sosial müdafiənin rolu ilə bağlıdır [16, s. 28]:

**DİM 1: Yoxsulluğun bütün formalarına son qoyulmalıdır**

- 1.3: Mərtəbələr də daxil olmaqla hamı üçün sosial müdafiə sistemləri və tədbirləri;
- 1.A. İnkişaf etməkdə olan ölkələrə, xüsusən də ən az inkişaf etmiş ölkələrə bütün ölçülərdə yoxsulluğa son qoymaq üçün proqram və siyasətlərin həyata keçirilməsi üçün adekvat və proqnozlaşdırıla bilən vasitələr təmin etmək məqsədilə müxtəlif mənbələrdən, o cümlədən inkişaf üzrə əməkdaşlıq vasitəsilə resursların əhəmiyyətli səfərbər edilməsini təmin etmək;

**DİM 3: Sağlam həyatı təmin etmək və bütün yaşlarda hamı üçün rifahı təşviq etmək**

- 3.8: Ümumi sağlamlıq təminatına nail olun;

**DİM 5: Gender bərabərliyinə nail olmaq, bütün qadınları və qızları gücləndirmək**

- 5.4: Dövlət xidmətlərinin göstərilməsi, infrastruktur və sosial müdafiə siyasətləri və ev təsərrüfatında və ailə daxilində ümumi məsuliyyətin təşviqi vasitəsilə ödənişsiz qayğı və ev işlərini tanıyın və qiymətləndirin;
- **DİM 8: Layiqli işi və iqtisadi inkişafı təşviq edin**
- 8.5: Tam və məhsuldar məşğulluğa və layiqli işə nail olun bütün qadınlar və kişilər üçün, o cümlədən gənclər və əlilliyi olan şəxslər və bərabər dəyərli iş üçün bərabər əməkhaqqı;

**DİM 10: Daxildə və ölkələr arasında bərabərsizliyi azaldın**

- 10.4: Siyasətləri, xüsusilə fiskal, əməkhaqqı və sosial müdafiə siyasətlərini qəbul edin və tədricən daha böyük bərabərliyə nail olun;

**DİM 16: Sülh, ədalət və güclü qurumlar**

- 16.6: Bütün səviyyələrdə effektiv, hesabatlı və şəffaf institutları inkişaf etdirin.

Beləliklə, sosial müdafiə məqsədlərinə yanaşmada praktiki baxımdan sosial müdafiənin təmin edilməsinə töhfə verən iqtisadi əhəmiyyət kəsb edən bir sıra idarəetmə məsələləri nəzərə alınmalıdır:

– Əhalinin normal qidalanma, təhsil, səhiyyə, habelə digər həyati əhəmiyyətli məhsul və xidmətlərdən istifadəsinə imkan verən əsas gəlirlilik mühitinin formalaşdırılması;

– Uzunmüddətli dayanıqlığı təmin etmək üçün yoxsul və həssas kateqoriyadan olan əhalinin sosial müdafiəsi sistemlərinin və mexanizmlərinin yaradılması;

– İşləyən fərdlərdə etibarlı dövlət mühafizəsi (təminatı) stereotipinin formalaşdırılması;

– Cəmiyyət miqyasında əmək məhsuldarlığının yüksəldilməsi;

– Əhali gəlirlərinin itirilməsi ilə nəticələnən müxtəlif sosial-riskli vəziyyətlərdə itirilmiş gəlirlərin müəyyən şərtlər daxilində bərpası;

– Əhali təbəqələri arasında gəlir bərabərsizliyini azaltmaq üçün müxtəlif sosial müdafiə proqramlarının və fiskal, əmək haqqı, sosial müdafiə xarakterli qərarların inklüzivlik şəraitində qəbul edilməsi;

– Tam (mümkün) məşğulluğa nail olmaq, hər iki cins üçün layiqli iş mühitinin, əməyin mühafizəsi, işə münasibətdə layiqli əməkhaqqı əldə edilməsi şəraitinin qurulması;

– Ölkədə inkişaf edən əmək münasibətlərinə uyğun əmək bazarının idarə olunması və nəzarət sisteminin formalaşması.

### 3. Azərbaycanda sosial müdafiənin inkişafında məqsədlərin reallaşdırılması təcrübəsinin əsas komponentləri

Azərbaycanda müstəqiliyin ilk illərindən sosial ədalət, sosial müdafiə və təminat hüquqlarının konstitusion müstəvidə dövlətçilik fəlsəfəsinin əsas komponentlərindən olmaqla qəbul edilməsi ölkənin sosial dövlət olaraq formalaşması üçün zəmin rolunu oynamışdır. Həmin vaxtdan əhali yoxsulluğu probleminin başlıca məsələ kimi qəbul edilərək dövlət idarəetməsi səviyyəsində nəzarətə götürülməsi, mövcud iqtisadi imkanların əhalinin minimum yaşayış səviyyəsinin daha da pisləşməməsi üçün sosial müdafiəyə cəlbi ilə bağlı tədbirlər nəticəsində postsovet dövrünün dağılmış sosial və iqtisadi təsisatlarına nəzərən əhalinin minimal yaşayışının qorunması təmin edilmişdir. Sonrakı illərdə isə xüsusilə respublikanın maliyyə-iqtisadi imkanlarının artırılmasına fokuslanmış islahatların tədricən icrası ilə sosial müdafiədə idarəetmənin daha da sistemli hala gətirilməsi və sosial müdafiədə sığorta-pensiya sistemi kimi baza mexanizminin, həmçinin müavinətlərlə, müxtəlif təqaüd və kompensasiyalarla təminat, habelə sosial dəstək proqramlarını nəzərdə tutan müxtəlif sosial təminat mexanizmlərinin yaradılması təmin edilmişdir.

Azərbaycanın postsovet məkanında sosial müdafiənin nəticələrinə görə qabaqcıl mövqelərdə olması burada sosial müdafiənin imkanlarının iqtisadi imkanlarla əlaqələndirilə bilməsi istiqamətində müsbət nəticəli təcrübələrə bağlıdır. Azərbaycanda dövlət səviyyəsində sığorta-pensiya sistemi sahəsində müsbət beynəlxalq təcrübə mübadiləsi üçün ortaq platforma xüsusiyyətini daşıyan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq aparılması da sosial müdafiənin sistemli inkişafı üçün müsbət rol oynamış amillərdən hesab edilməlidir. Bu istiqamətdə BMT, Dünya Bankı kimi beynəlxalq təşkilatlar, həmçinin dünya ölkələrinin əksəriyyətinin pensiya təminatı ilə məşğul olan milli operatorlarının üzv olduğu Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA və ya ing. ISSA) ilə uzunillik əməkdaşlıq təcrübəsi üzrə bu istiqamətdə qlobal tendensiyaların öyrənilməsi ilə milli səviyyədə müəyyənləşdirilən sosial müdafiə siyasəti Azərbaycanda sosial müdafiənin retrospektiv əsaslarını formalaşdırmaqla, həmçinin perpsektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində əhəmiyyətli hesab edilir. Azərbaycanda sosial müdafiənin məqsədlər istiqamətində təmin edilməsi təcrübəsi ilk növbədə yoxsulluq problemi kontekstində, həmçinin sığorta-pensiya sistemi timsalında yüksək qiymətləndirilməlidir.

Statistik göstəricilərdən də göründüyü kimi, Azərbaycanda bazar iqtisadiyyatında keçid dövründə yoxsulluq problemi kifayət qədər kəskin olmuş (o cümlədən 2001-ci ildə hələ 49,0 faiz səviyyəsində olmuş), 2000-ci illərdə, demək olar ki, on illik ərzində dinamik şəkildə bu problemin səviyyəsinin azaldılmasına nail olunmuş, sonrakı onillik dövrdə isə təqribən 5 faiz ətrafında dəyişmişdir. Ölkə üzrə müəyyən olunmuş minimum pensiya ölçüləri demoninasiya nəzərə alınmaqla 1995-ci ildə 1,1 manat olduğu halda, yüksəldilərək 2000-ci ildə 10,0 manat

təşkil etmiş, 2010-cu ildə 85 manata, 2020-ci ildə 200,0 manata, 2025-ci ildə 320,0 manata çatmışdır. Təyin olunmuş pensiyaların orta məbləği müvafiq illərdə ilin əvvəlinə 1,7 manat, 13,0 manat; 100,4 manat; 263,6 manat; 2025-ci ilin əvvəlinə isə 496,6 manat təşkil etmişdir [14; 17; 18; 19; 20].

Göründüyü kimi, ölkədə bəzi parametrli göstəricilərin nümunəsində qısa müddətdə dinamik sosial inkişaf aydın görünsə də, bu əsasda əsas sosial problem kimi yoxsulluq aradan qaldırılsa da, sosial rifah baxımından bərpa üçün xeyli vaxt tələb olunmuşdur. Bu istiqamətdə əsas problemlərdən biri olaraq, son vaxtlaradək minimum pensiya məbləği, demək olar ki, bütün illərdə yaşayış minimumu məbləğindən aşağı olmuş, yalnız 2020-ci ildən etibarən birincinin üstələməsinin müşahidə olunmasına başlanılmışdır. Həmçinin minimum əməkhaqqı göstəricisi yaşayış minimumu göstəricisindən aşağı olmuş, yalnız 2019-cu ildə bu iki parametr üzrə göstəriclərin bərabərləşməsi və differensiasiyanın "1,0" göstəricisindən sonrakı uzaqlaşması baş vermişdir. Minimum əməkhaqqı göstəricisi ilə orta aylıq əməkhaqqı göstəriciləri arasında olan differensiasiyanın 2006-cı illərdən sonra 0,2 faiz səviyyəsindən tədricən yüksələrək təqribən hazırda 0,35-ə qədər yüksəldilməsi baş vermişdir ki, bunu da 2018-2019-cu illərdən etibarən inzibati islahatların gücləndirilməsi ilə əlaqələndirimək olar. Qeyd edilənlər fonunda həmçinin sosial yardım, sosial xidmətlər və digər sosial təminat mexanizmlərinin təşəkkülü və inkişafına əslində insitusional islahatlar baxımından bir qədər gec müddətlərdə (müvafiq olaraq 2006-cı və 2012-ci illərdən qüvvəyə minmiş qanunlar səviyyəsində ana normativ çərçivəsinin müəyyənləşdirilməsilə) başlanılsa da, bu sahə üzrə problemlərin dövlət proqramları çərçivəsində əsas məsələlər sırasında yer alması Azərbaycanda sosial müdafiənin müasir məqsəd istiqamətləri arasında qeyd edilən sahələrin inkişafının da nəzərə alınmasını tələb edir [10; 11].

Bazar iqtisadiyyatına keçid dövrünün qarışıq sosial və iqtisadi problemləri ilə mübarizə şəraitində Azərbaycanda bu iki istiqamətin əsas sosial müdafiə mexanizmləri olaraq seçilməsi yerli xüsusiyyətlər də nəzərə alınmaqla sonrakı ərəfədə əhalinin minimal ehtiyaclarının qarşılanması ilə müəyyən stabillik mühitinin formalaşdırılmasına imkan vermişdir. Bu daha sonrakı iqtisadi islahatların icrasını və həmin islahatların maddi-maliyyə nəticələrinin eyni zamanda sosial müdafiə sistemi ilə əlaqələndirilməsində əsas rol oynamışdır və bu, həmin zaman şərtlərində sosial müdafiənin məqsədlərinin düzgün müəyyən edildiyini deməyə əsas verir. Bu isə onu mülahizə etməyə imkan verir ki, sosial müdafiənin məqsədlərinin seçilməsi sosial müdafiənin təşkili və idarə edilməsində mühüm və davamlı aktuallıq kəsb edən problemlərdəndir. Sosial müdafiənin məqsədləri qoyulan sosial-iqtisadi hədəflərlə koordinasiya edilmiş şəkildə və uyğun mexanizmlərinin daha qabarıq işə salınması fəlsəfəsi üzərində sosial müdafiə fəaliyyətinin təmin edilməsinə əsaslanır. Qeyd edilənlər retrospektiv baxımdan sosial müdafiə problemlərinin həllində digər sosial müdafiə mexanizmləri ilə müqayisədə dövlət sosial sığorta sistemi çərçivəsində daha erkən təşəkkülü və inkişafı baş vermiş məcburilik prinsipinə əsaslanan pensiya və müavinət təminatının rolunun sonrakı

perspektivdə artan sosial və iqtisadi tələblərə uyğun təkmilləşdirilməsi ilə bağlı idarəetmə məsuliyyətlərinin də formalaşdığını deməyə əsas verir.

2000-ci illərin ortalarından başlayaraq dövlət idarəetməsində elektron üsullarının tətbiqinə marağın artması fonunda sosial müdafiənin də təşkili ilə bağlı elektron xidmətlərin tətbiqinin getdikcə genişlənməsi sosial müdafiənin yeni formalı inkişaf məqsədləri və hədəflərini (aralıq məqsədlərini) formalaşdırmaqdadır. Sosial müdafiədə elektron texnologiyalarının tətbiqinə əsaslanmaqla Azərbaycanda benefisiarları (fərdləri) bilavasitə sosial müdafiə problemləri ilə bağlı məsələlərlə yanaşı, əlavə məşğulluq və digər xidmətlərə yönəltmək üçün "bir pəncərə xidmətləri" və ya "bir pəncərə" kimi inteqrasiya olunmuş çatdırılma mexanizmlərinin yaradılmasının sosial müdafiənin müasir problemlərindən biri hesab olunan - xidmət göstərilməsində fraqmenatsiya (parçalanma), koordinasiya və əlçatanlıq (çatdırılma) ilə bağlı problemlərin aradan qaldırılması istiqamətində effektiv üsullardan hesab olunması beynəlxalq səviyyədə Beynəlxalq Əmək Təşkilatı tərəfindən də yüksək qiymətləndirilməkdədir [15]. 2018-ci ildən başlayaraq "bir pəncərə" prinsipilə sosial müdafiə xidmətlərinin elektronlaşmasının dərinləşdirilmiş tətbiqilə həyata keçirilməsinə başlanılması, xüsusən DOST konsepsiyasının icrası sistemdə xidmət keyfiyyətinin yaxşılaşmasına böyük təsir göstərmişdir.

Sosial müdafiə sahələrində göstərilən xidmətlərin elektronlaşdırılmasında əsas dönüş nöqtəsi 2018-ci ildə müvafiq Prezident fərmanına əsasən, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində idarəetmənin mərkəzləşdirilmiş elektron informasiya sistemi bazasına keçirilməsi, idarəetmə və nəzarət tədbirlərinin burada yaradılmış müvafiq aidiyyəti altsistemlər vasitəsilə həyata keçirilməsinin təməlinin qoyulması ilə bağlıdır [12]. Ötən dövr ərzində əldə olunan elektronlaşma dərəcəsi ilə bağlı nazirlik vasitəsilə açıqlanılan göstəricilərin əslində yüksək (90 faizin üzərində) olması bu istiqamətdə hədəflərə nail olmaqla bağlı müsbət nəticələrə işarə edir [8; 9; 13]. Bununla yanaşı, elektronlaşma timsalında sosial müdafiənin təşkilində maliyyə səmərəliliyi, informasiya təhlükəsizliyi, vətəndaş məmnunluğu və s. kimi aspektlərdə əlavə tənzimlənilmə tələb edən idareətmə elementlərinin də ortaya çıxması baş verir ki, bu kimi məsələlər də sosial müdafiənin məqsədlərinin növbəti inkişaf istiqamətlərini formalaşdırır.

Beləliklə, Azərbaycanda sosial müdafiənin tətbiqi təcrübəsində sosial müdafiə məqsədlərinin formalaşması xüsusiyyətlərinin əsas istiqamətlərini aşağıdakı kimi qeyd etmək lazımdır:

- Azərbaycanda dövlət quruculuğunun ilk illərində sosial müdafiədə məqsədlər arasında prioritet olan yoxsulluq problemi yerini sonrakı illərdə köklü həllər hesabına digər sosial müdafiə mexanizmlərinə vermişdir;
- Yoxsulluq probleminin ilkin həlli mərhələsində əsas yükün sığorta-pensiya sistemi üzərinə düşməsi müşahidə edilsə də, sonrakı mərhələdə bu problemin həlli iqtisadiyyatın davamlı inkişafı ilə əlaqələndirilməlidir.

İnkişaf baxımından qlobal tendensiyalara uyğunlaşmanın tələb olunduğu müasir şəraitdə Azərbaycanda da sosial müdafiənin növbəti kursu əhalinin daha sürətlə və fərqli təzahür formalarında artan ehtiyaclarının keyfiyyətcə, maliyyə və sosial əhatəlilik baxımından daha yüksək səviyyədə və intensivlikdə uyğunlaşdırılması ilə bağlı fəaliyyətin qurulması zərurətinin yeni məqsəd istiqamətləri şəklində özünü biruzə verməsi ilə bağlı olacaqdır. Bu mənada Azərbaycanda sosial müdafiənin məqsədlər istiqamətli inkişafının üç keyfiyyət dəyişikliyi mərhələsini ayrımaq lazımdır ki, bu yanaşma da idarəetmə resurslarının cəmləşdirilməsi və səmərəli istifadəsi ilə bağlı istiqamətlərinin də qabarıq ortaya çıxmasına şərait yaratmaqla, sosial müdafiənin inkişafına xidmət edir: 1. Yoxsulluq probleminin həlli; 2. Sosial müdafiənin sığorta-pensiya sistemi bazasında əsas sütununun qurulması və sosial stabilləşdirmə; 3. Sosial müdafiənin hazırkı dövr üçün aktual olan struktur və keyfiyyət inkişafı.

Müasir şəraitdə sosial müdafiənin müasir tələblərə uyğun şəkildə inkişafına təkcə sosial müdafiə sisteminin çərçivəsində idarəetmə səviyyəsində həyata keçirilən proqram xarakterli və fundamental islahatların tətbiqi yolu ilə nail olunması mümkün deyildir. Belə ki, həmin islahat tədbirlərinin keyfiyyətindən və əsaslılığından asılı olmayaraq, onların nəticəliliyi və effektivliyi milli iqtisadiyyatın ümumi iqtisadi inkişaf imkanları, xüsusən də idarəetmə problemi olaraq, həmin imkanların sosial müdafiə sisteminin maliyyə imkanları ilə əlaqələndirilməsi ilə bağlıdır. Demək olar ki, bütün hallarda sosial müdafiədə müəyyən olunan məqsədlər yönündə fəaliyyətin səmərəliliyi son nəticədə maliyyə imkanları ilə kəsişməyə gətirib çıxarır. İlk növbədə məhz bu səbəbdən konkret ölkə nümunəsində sosial müdafiənin gücləndirilməsi qısamüddətli və sadə məsələ olmamaqla, bu hədəflər adekvat maliyyə imkanlarının təmin edilməsi ilə bağlıdır. Bu çərçivədə ikinci məsələ isə həmin resurslardan optimal və məqsədyönlü istifadə olunması ilə əlaqədardır. Sosial müdafiənin dəyərləndirilməsinə "məqsəd-hədəf-funksiya" yanaşmasında baxılması bu çərçivədə idarəetmə təcrübəsində ötən dövrdə buraxılan boşluqların, mövcud çatışmazlıqların və bu əsasda perspektiv strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün əhəmiyyətlidir. Həmin təhlillər zamanı müxtəlif müəllif və ya mütəxəssis yanaşmalarında fərqlənən metodoloji yanaşmaların olması mümkün və gözlənilən hesab edilsə də, problemlərə yanaşma qeyd etdiyimiz üçlü prizmadan uzaqlaşmayacaqdır. Bu məqam da mövzunun növbəti elmi təhlillər və idarəetmə məqsədləri üçün əhəmiyyətini vurğulamağa imkan verir.

**Nəticə.** Beləliklə, hazırda Azərbaycanda sosial müdafiənin qaldırılan məsələlərinin və mülahizələrin məzmunu nəzərə alınmaqla perspektiv baxımından Azərbaycan Respublikasında sosial müdafiənin məqsədlərə uyğun təmin edilməsi prinsipinin gücləndirilməsi üçün aktuallıq baxımından bu məsələlərin nəzərə alınmasını məqsədəuyğun hesab etmək olar: indiyədək olan dövrdə sosial müdafiənin inkişafında hərəkətverici məqsəd daha çox sosial müdafiənin mövcud maliyyə imkanları hesabına yaxşılaşdırılması olaraq özünü göstərmişdir, lakin sonrakı mərhələdə sosial müdafiənin təkmilləşməsi üçün daha çox maliyyə-resurs bazasının yaradılması tələb olunacaqdır. Bu məqsədlə, o cümlədən kölgə iqtisadiyyatının aradan qaldırılmasına dövlət səviyyəsində kompleks və proqramlı olaraq yanaşılmaqla, daha çox

ümumi daxili məhsul istehsalına nail olunması əsasında vergi və sosial sığorta üzrə yığım fondlarının həcminin genişləndirilməsilə qiymətləndirilməmiş və ya "gizli" maliyyə resurslarının sosial müdafiənin də maliyyələşdirilmə bazasına cəlb edilməsi diqqətdə saxlanılmalıdır. Bu çərçivədə ilk növbədə əməkhaqqı fondunun artımı hesabına sosial müdafiə sisteminin əsas hərəkətverici qüvvəsi kimi mövcud pensiya təminatı sistemi üçün əlavə maliyyə imkanlarının yaradılmalıdır. Ölkədə sosial müdafiə sisteminin strukturunda daha çox maliyyə resurslarının cəmləşdirildiyi sığorta-pensiya sisteminin müdafiə olunan xərclərinin qarşılanması sərbəst maliyyə vəsaitlərinin investisiyayönümlü istifadəsinin və dividendliyin təmin edilməsilə yaranan əlavə maliyyə resurslarının sosial müdafiənin daha keyfiyyətli təmini istiqamətində sığorta-pensiya sistemində yenidən məqsədyönlü istifadəyə cəlb edilməsi də optimal əhəmiyyətlidir. Bu istiqamətdə, əsasən, sistemxarakterli banklarda depozitə yerləşdirilməni əhatə edən mövcud investisiyayönümlü fəaliyyət yanaşması kifayət etməməklə, investisiya fəaliyyətinin genişləndirilməsi həmçinin sığorta-pensya sisteminin uzunmüddətli maliyyə dayanıqlılığı nöqteyi-nəzərdən labüd əhəmiyyətlidir. Bu çərçivədə pensiya təminatı sisteminin 2006-cı ildən başlayaraq birkompnentli şəkildə məcburi dövlət sosial sığortası əsasında fəaliyyətə başlamasına baxmayaraq, qanunvericiliyimizdə əmək pensiyalarının könüllü əsaslarla yığım komponentinin (icbari əsasda risklilik təcrübəsi nəzərə alınmaqla), həmçinin qeyri-dövlət pensiya təminatını nəzərdə tutan və gələcəkdə pensiyaçılara daha yaxşı pensiya əvəzetmə dərəcəsi əldə etməyə imkan verəcək aktual əhəmiyyətli mexanizmi kimi, pensiya sisteminin investisiya fəaliyyətinə əsaslanan üçüncü pilləsinin (komponentinin) reallaşdırılması üçün dövlət səviyyəsində maliyyə sisteminin imkanlarının uyğunlaşdırılması istiqamətində tədbirlər görülməsi tezləşdirilməlidir. Növbəti ərəfədə sosial müdafiənin təkmilləşdirilməsində hazırda rəqəmsallaşma istiqamətində götürülmüş inkişaf xətti üzərində elektron idarəetmənin az xərctutumluluq prinsipi gözlənilməklə dərinləşdirilməsi məqsədəuyğundur. Azərbaycanda sosial müdafiə təcrübəsinin ötən dövründə dövlətçilik məqsədlərinə uyğun olaraq sosial müdafiədə məqsədlərin, əsasən, quruculuq və sosial stabilləşdirici funksiyada daha qabarıq yerinə yetirildiyini və sistemin minimal zəmanətlər yaradan formalaşmış strukturunun mövcudluğu nəzərə alınaraq, növbəti ərəfədə daha çox sosial kontingentlərə münasibətdə sosial ədalət prinsiplərinin gücləndirilməsinə xüsusi diqqət ayrılması prioritetlərdən hesab edilməlidir. Müasir şəraitdə perspektiv baxımından Azərbaycanda sosial müdafiənin daha çox transformativlik yanaşmasında dərinləşdirilməsini vacib hesab etmək olar.

## Ədəbiyyat

1. Barron G.C., Laryea-Adjei G., Vike-Freiberga V., Abubakar I., Dakkak H., Devakumar D., Johnsson A., Karabey S., Labonté R., Legido-Quigley H., Lloyd-Sherlock P., Olufadewa I.I., Ray H.C., Redlener I., Redlener K., Serageldin I., Lima N.T., Viana V., Zappone K., Huynh U.K., Schlosberg N., Sun H., Karadag, O. (2022). Safeguarding people living in vulnerable conditions in the COVID-19 era through universal health coverage and social

protection. The Lancet Public Health, Vol.7, No.1, e86-e92. https://doi.org/10.1016/S2468-2667(21)00235-8
2. Demirel S., Aslan T. (2024), Sosyal güvenlik reformu ve finansal etkileri. Finans Alanında Akademik Analizler, 23. https://www.researchgate.net/profile/Kuebra-Saglam-3/publication/379282809_Zihinsel_muhasebenin_davranissal_finans_uzerindeki_etkisi/links/6602d7058be8c8003bb87d4a/Zihinsel-muhasebenin-davranissal-finans-uezerindeki-etkisi.pdf#page=28
3. Devereux S. (2007), Social protection for transformation. https://opendocs.ids.ac.uk/articles/journal_contribution/Social_Protection_for_Transformation/26462962/1/files/48238660.pdf
4. Devereux S., Sabates-Wheeler R. (2004), Transformative social protection. https://opendocs.ids.ac.uk/articles/report/Transformative_social_protection/26442910?file=48090889
5. Əlirzayev Ə.Q. (2010), Sosial Sferanın İqtisadiyyatı və İdarə Edilməsi. Bakı: İqtisad Universiteti nəşriyyatı, 206.
6. Əliyev T.F., Namazov A.Ə. (2017), İqtisadiyyat. Dərs vəsaiti. Bakı: Ecoprint nəşriyyatı, 27.
7. Hacızadə E.M. (2006), Sosiallaşan İqtisadiyyat. Bakı: Nurlan NRM, 216.
8. https://dost.gov.az/news/621
9. https://dost.gov.az/news/919
10. https://e-qanun.az/framework/10854
11. https://e-qanun.az/framework/23195
12. https://e-qanun.az/framework/39919
13. https://xeberler.az/new/details/nazirlik-uzre-xidmetlerin-elektronlasma-seviyyesi-90-faizi-otub--29449.htm
14. https://sosial.gov.az/media/xeberler/fevralin-1-den-minimum-pensiya-320-manatdir
15. https://www.social-protection.org/gimi/Media.action?id=18396
16. https://www.social-protection.org/gimi/Media.action?id=18396
17. https://www.stat.gov.az/news/index.php?id=6221&lang=az
18. https://www.stat.gov.az/source/budget_households/az/5.4.xls
19. https://www.stat.gov.az/source/healthcare/az/002_1_1.xls
20. https://www.stat.gov.az/source/healthcare/az/002_1_3.xls
21. Kangasniemi M., Bhalla G., Knowles M., Pereira K.C., Gentilini U. (2025), The role of social protection in achieving resilient and inclusive rural transformation. Global Food Security, Vol.44, 100836. https://doi.org/10.1016/j.gfs.2025.100836
22. Nonvide G.M.A., Ouınsou C.A., Degbedji D.F. (2025), Agricultural risks and food security in Benin: Role of social protection policy. Development and Sustainability in Economics and Finance, Vol.7, 100071. https://www.sciencedirect.com/science/article/pii/S2950524025000319